**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN KOLLEGİYASI**

**Q Ə R A R**
**№ 59-2**

**Bakı şəhəri** **11 fevral 2022-ci il**

**Azərbaycan Hökumətinin BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiya"sı üzrə altıncı, "Uşaq hüquqları haqqında" Konvensiyası üzrə beşinci, altıncı dövri məruzələri və məruzələrlə bağlı təqdim edilmiş sualların cavablandırılması barədə məlumat**

BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiya"sına dair Azərbaycan Hökumətinin altıncı dövri məruzəsi 2019-cu ildə təqdim edilmişdir. Təqdim edilmiş hesabatla bağlı BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsi tərəfindən hazırlanmış suallar aidiyyəti dövlət qurumlarının cavabları əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ümumiləşdirilərək BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinə təqdim edilməsi üçün 2021-ci ilin dekabr ayında Xarici İşlər Nazirliyinə göndərilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına dair Azərbaycan Hökumətinin beşinci və altıncı dövri məruzəsi 2018-ci ildə hazırlanaq təqdim edilmişdir. Müvafiq qayda üzrə BMT-nin Uşaq Hüquqları Komitəsi tərəfindən beşinci və altıncı dövri məruzə üzrə suallar hazırlanmışdır. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən daxil olmuş məktubda qeyd edilən sualların cavablarının hazırlanaraq 15 may 2022-ci ilədək göndərilməsi xahiş edilmişdir.

Hal-hazırda bu istiqamətdə işlər görülür, müvafiq dövlət qurumlarından cavablar toplanılıb və onlar üzərində ümumiləşdirmə işləri aparılır.

Azərbaycan Hökumətinin BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiya"sı üzrə altıncı, "Uşaq hüquqları haqqında" Konvesiyası üzrə beşinci, altıncı dövri məruzələri və məruzələrlə bağlı təqdim edilmiş sualların cavablandırılması barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**Q Ə R A R A   A L I R :**

**1.** Azərbaycan Hökumətinin BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiya"sı üzrə altıncı, "Uşaq hüquqları haqqında" Konvensiyası üzrə beşinci, altıncı dövri məruzələri və məruzələrlə bağlı təqdim edilmiş sualların cavablandırılması barədə məlumat nəzərə alınsın.

**2.** Xarici əlaqələr və protokol xidməti şöbəsinə tapşırılsın:

2.1. BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına dair Azərbaycan Hökumətinin beşinci və altıncı dövri məruzəsi üzrə hazırlanmış sualların cavablarını BMT-nin Uşaq Hüquqları Komitəsinə təqdim etsin;

2.2. BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsində ölkə hesabatının dinlənilməsinə dair fəaliyyəti davam etdirsin;

2.3. BMT və Avropa Şurasının müvafiq Komitələrinin iclaslarında Dövlət Komitəsi nümayəndəsinin iştirakını təmin etsin.

**3.** Qərarın icrasına nəzarət sədr müavini Sədaqət Qəhrəmanovaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**